DÖVLƏT VERGİ XİDMƏTİ

# Tütün məmulatları üzrə aksizin ödənilməsi mexanizmi dəyişdirildi

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.07.2024-cü il tarixdən etibarən tütün məmulatları və onların əvəzediciləri, elektron siqaretlər üçün maye, birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri**

- ölkə daxilində istehsal və ölkə ərazisinə idxal edildikdə aksizlər məcburi nişanın alındığı vaxt ödəniləcək.
- **Aksiz dərəcələrində artım olduqda,** məcburi nişan alarkən vergini aşağı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə artırılmış dərəcəyə əsasən hesablanmış aksiz məbləği ilə əvvəlki dərəcəyə əsasən hesablanmış aksiz məbləği arasındakı fərqi dəyişikliyin

**Dövlət büdcəsinə ödənilməli olan vergilər barədə ətraflı məlumatla www.taxes.gov.az internet saytında tanış ola bilərsiniz.**

BAKI — 2024

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

qüvvəyə mindiyi ayın aksiz bəyannaməsində əks etdirməklə növbəti ayın 20-dən gec olmayaraq, idxal əməliyyatlarına münasibətdə isə həmin məcburi nişanlarla nişanlanmış malların idxal edildiyi vaxt gömrük bəyannaməsində əks etdirməklə dövlət büdcəsinə ödəyəcəkdir.

- **Aksiz dərəcələrində azalma olduqda,** məcburi nişan alarkən vergini yuxarı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə azaldılmış dərəcəyə əsasən hesablanmış aksiz məbləği ilə əvvəlki dərəcəyə əsasən hesablanmış aksiz məbləği arasındakı fərqi dəyişikliyin qüvvəyə mindiyi ayın aksiz bəyannaməsində əks etdirməklə, idxal əməliyyatlarına münasibətdə isə həmin məcburi nişanlarla nişanlanmış malların idxalı üzrə tərtib edilmiş gömrük bəyannaməsində əks etdirməklə **aksiz öhdəliyini azaldacaqdır.**
- Bu malların istehsalçısı olan hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildikdə onların sahibliyində aktivləşdirilməmiş məcburi nişan qalarsa, vergi ödəyicisi həmin nişanları alarkən ödənilmiş aksiz məbləğlərini geri almaq hüququna malik olacaqdır.
- Həmin mallar sonradan təkrar ixrac məqsədilə idxal olunduqda aksiz məcburi nişanın alındığı vaxt ödəniləcəkdir.

**Nə dəyişdi?**

- **01.07.2024-cü il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən,** ölkə daxilində istehsal edilən tütün məmulatları üzrə aksizin tutulduğu vaxt həmin malların istehsal binasının hüdudlarından kənara buraxıldığı vaxt hesab edilir. İdxal edilən tütün məmulatları üzrə isə Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt vergi tutulan əməliyyatın vaxtı kimi qəbul edilir.
- **01.07.2024-cü il tarixdən qüvvədə olacaq qanunvericiliyə əsasən** isə tütün məmulatları ölkə daxilində istehsal və ölkə ərazisinə idxal edildikdə aksizlər məcburi nişanın alındığı vaxt ödəniləcək.

Aksiz vergisi ilə bağlı ətraflı məlumatla “Aksizlər” adlı bukletdən tanış ola bilərsiniz.